"TƏSDİQ EDİLMİŞDİR"
"AzFinance İnvestisiya Şirkəti"
Qapalı Səhmdar Cəmiyyətinin
Direktoru İntiqam Səfərəliyev

# İNVESTİSİYA XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ ÜZRƏ ÜMUMİ OFERTA MÜQAVİLƏSİ

Bu Azərbaycan Respublikası qanunvericiliyi əsasında Nizamnaməsinə uyğun olaraq fəaliyyət göstərən "AzFinance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra – Şirkət) investisiya xidmətlərinin göstərilməsi üçün Ümumi oferta müqaviləsidir (bundan sonra – Müqavilə).

Bu Müqavilənin şərtlərini qəbul etmiş şəxsə Şirkət tərəfindən investisiya hesabı açılır və qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi xidməti göstərilir.

Bu Müqavilədə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

**Tərəflər** – Şirkət və Müştəri;

**Ümumi oferta** – qeyri-müəyyən sayda fiziki və hüquqi şəxslərə ünvanlanan, Şirkət tərəfindən göstərilən xidmətlərə dair təklif. Şirkətin konkret xidmətləri üzrə Tərəflər arasında yaranan münasibətlər bu ümumi oferta ilə tənzimlənir;

**Aksept** – Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 409.4-cü maddəsinə uyğun olaraq Ümumi ofertanın tam və qeyd-şərtsiz qəbulu.

**Sayt** – Şirkətin rəsmi internet səhifəsi;

**Maddi məsuliyyət** – Bu müqavilənin icrası zamanı onun şərtlərinin pozulması nəticəsində vurulan və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində müəyyən edilən maddi zərərə görə məsuliyyət;

**Qanunvericilik** – Azərbaycan Respublikası ərazisində qüvvədə olan və tətbiq olunan qanun, qərar, qayda, fərman, sərəncam, təlimat və sair normativ-hüquqi aktlar.

**Müştəri** – qiymətli kağızlar və ya törəmə maliyyə alətləri üzrə xidmətlərin alınmasına dair müqavilə bağlamış fiziki və ya hüquqi şəxs.

## 1. MÜŞTƏRİ HESABININ AÇILMASI QAYDASI

1.1. İnvestisiya hesabının açılması Tərəflərin bu Müqavilənin qəbul edilməsi ilə bağlı ərizənin imzalaması yolu ilə həyata keçirilir. Depozitar sistemində depo hesabının açılması bu müqavilə əsasında Şirkətin məsul şəxsi tərəfindən həyata keçirilir.

1.2. Müştərinin depozitar sistemdə depo hesabı artıq mövcuddursa, Müştəri mövcud hesab üzrə Şirkətə sərəncam verə bilər və ya Şirkət tərəfindən Müştəriyə yeni depo hesabı açılaraq əvvəlki depo hesabı bu hesaba birləşdirilə bilər.

1.3. İnvestisiya Hesabının və ya depo hesabının açılması üçün aşağıdakı sənədlər Şirkətə təqdim edilməlidir:

1.4. Fiziki şəxs olan müştəri ilə müqavilənin bağlanması və investisiya şirkəti tərəfindən müştəri hesablarının (depo) açılması üçün aşağıdakı sənədlər (məlumatlar) təqdim edilir:

1.4.1. müştərinin şəxsiyyətini təsdiq edən sənəd məlumatları (şəxsiyyəti təsdiq edən sənəd təqdim edilir, investisiya şirkətində saxlanılması üçün surəti çıxarılır və sənəd geri qaytarılır);

1.4.2. müştərini səlahiyyətli nümayəndə qismində fiziki şəxs təmsil etdikdə təmsil edən şəxsin şəxsiyyətini və təmsiliçiliyi təsdiq edən sənəd, müştərini səlahiyyətli nümayəndə qismində hüquqi şəxs təmsil etdikdə isə bu Müqavilənin 1.5-ci bəndində qeyd edilən sənədlər;

1.4.3. müştəri anketi.

1.5. Hüquqi şəxs olan müştəri ilə müqavilənin bağlanması və investisiya şirkəti tərəfindən müştəri hesablarının (depo hesablarının) açılması üçün aşağıdakı sənədlər tələb edilir:

1.5.1. hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında müvafiq sənədin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq olunmuş surəti;

1.5.2. etibarnamə (olduqda);

1.5.3. müştəri anketi;

1.5.4. imza səlahiyyətinə malik olan şəxslərin siyahısı, imza və möhür nümunəsi.

1.6. İnvestisiya şirkəti tərəfindən əldə edilən sənədlər yoxlanılır, o cümlədən təmsilçilik əsasında investisiya şirkəti ilə müqavilə bağlandıqda, investisiya şirkəti tərəfindən səlahiyyətli şəxsin şəxsiyyəti müəyyən edilir və onların şəxsiyyətini təsdiq edən sənədlərdə olan məlumatların etibarnamədə göstərilmiş məlumatlarla uyğunluğu tutuşdurulur. Sənədlərdə uyğunsuzluqlar olduqda, investisiya şirkəti investisiya xidmətlərinin (əməliyyatlarının) göstərilməsindən imtina edir.

1.7. Müvafiq dövlət orqanlarının (qurumlarının) elektron informasiya sisteminə inteqrasiya təmin olunduğu halda bu Müqavilənin 1.4.1-ci, 1.5.1-ci bəndlərində nəzərdə tutulan müvafiq sənəd və məlumatlar investisiya şirkəti tərəfindən onlayn rejimdə əldə olunur.

1.8. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən eyniləşdirmə tədbirləri üçün müvafiq sənədlər Müştəridən tələb edilə bilər. Sənədlərdə uyğunsuzluqlar olduqda, investisiya şirkəti investisiya xidmətlərinin (əməliyyatlarının) göstərilməsindən imtina edir.

## 2. FİZİKİ ŞƏXSLƏR ÜÇÜN MÜŞTƏRİ HESABLARININ MƏSAFƏDƏN AÇILMASI

2.1. Müştəri bu Müqavilənin şərtləri ilə razı olduğu təqdirdə, Şirkət tərəfindən yeni müştəri üçün müştəri hesabının (depo) məsafədən açılmasını aşağıdakı qaydada həyata keçirilir.

2.2. Bunun üçün Müştəri Şəxsiyyət vəsiqəsinin hər iki üzünün şəklini və istifadəçinin tanınması (identifikasiyası) məqsədilə video formatında aşağıdakı +994502905667 mobil nömrəsinə videoyazını göndərir.

Videoyazının çəkilişi zamanı aşağıdakı şərtlər tələb olunur:

- Videoyazı zamanı şəxsiyyət vəsiqəniz yanınızda olmalı, ilk 10 saniyə şəxsin tanınması üçün şəxs özünü təqdim etməli (Ad, soyad, ata adı olaraq) və vəsiqənin aydın görünməsi şərtilə 10 saniyə vəsiqənin hər iki üzünü ekrana yaxınlaşdırmalıdır.
- Çəkiliş aparılan mühit səssiz, işıqlı olmalı, ekranda ancaq müraciət edən şəxs özü olmalıdır.
- Şəxsiyyətin tanınmasına mane ola biləcək eynək, papaq və s. digər vasitələrdən istifadə olunması qadağandır.

2.3. Video görüntü ilə müştəri hesabı yalnız hesabın açıldığı vaxtdan 1 (bir) il ərzində qiymətli kağızlar və (və ya) törəmə maliyyə alətləri ilə ümumi məbləği 15000 (on beş min) manatadək və ya onun ekvivalentində xarici valyutada alqı-satqı əməliyyatlarının aparılması məqsədilə açıldığı halda tətbiq edilir. Müştəri qeyd edilən limiti keçdiyi zaman onunla bu Müqavilənin 3-cü bəndinə əsasən Müqavilə bağlanacaqdır. Bu zaman müştəri xüsusi təyinatlı informasiya resursu vasitəsilə eyniləşdirilir.

## 3. QİYMƏTLİ KAĞIZLAR VƏ YA TÖRƏMƏ MALİYYƏ ALƏTLƏRİ İLƏ APARILAN ƏMƏLİYYATLARLA BAĞLI MÜŞTƏRİ SİFARİŞLƏRİNİN QƏBUL VƏ İCRA EDİLMƏSİ

3.1. Bu Müqaviləyə əsasən Şirkət müştəriyə investisiya hesabı açır, həmçinin, depozitar sistemdə depo hesabının açılması, hesab üzrə əməliyyatların həyata keçirilməsi və uçotunun aparılması, depo hesabından çıxarışın verilməsini təmin edir.

3.2. Bu müqavilə yalnız aparılan əməliyyatlar üzrə müştəri şirkət münasibətlərini tənzimləyir, müştəri sifarişi və ya müraciəti olmadan təkbaşına müştəri üçün heç bir maddi öhdəlik yaratmır (müştərinin Şirkət ilə portfelin idarə edilməsi müqaviləsinin mövcudluğu halları istisna olmaqla).

3.3. Şirkət Milli Depozit Mərkəzinin (bundan sonra – MDM) “Depozitar sistemində hesabların açılması, bağlanılması və idarə edilməsinə dair qaydaları”na müvafiq olaraq depozitar sistemində Müştəriyə hesab operatoru xidmətini yerinə yetirir.

3.4. Müştərinin depozitar sistemdə depo hesabı artıq mövcuddursa, Müştəri mövcud hesab üzrə Şirkətə sərəncam verə bilər və ya Şirkət tərəfindən Müştəriyə yeni depo hesabı açılaraq əvvəlki depo hesabı bu hesaba birləşdirilə bilər.

3.5. Bu Müqaviləyə əsasən, Şirkət qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı Müştərinin sifarişlərini qəbul və icra edir. Bunun müqabilində Müştəri Şirkətə bu Müqaviləyə Əlavə ilə nəzərdə tutulmuş xidmət haqqı ödəyir.

3.6. Şirkət Müştəri sifarişlərinin qəbulunu və icra edilməsini Azərbaycan Respublikasının Mərkəzi Bankı bundan (bundan sonra – Mərkəzi Bank) tərəfindən təsdiq edilmiş “İnvestisiya şirkətləri tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası”na əsasən həyata keçirir.

3.7. İnvestisiya Şirkəti öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi və daxili qaydaları əsasında həyata keçirir.

3.8. Müştəri bu müqaviləyə qoşulmaqla Şirkətin daxili qaydaları ilə tanış olduğunu təsdiq edir.

3.9. Bu müqaviləyə quşulmaqla müştəri bu Müqavilədə əks olunmuş risk faktorları ilə tanış olmasını təsdiq edir.

## 4. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. Şirkətin hüquqları:
4.1.1. Bu Müqavilə üzrə Xidmətlərin göstərilməsinə görə Müştəridən xidmət haqqı almaq;
4.1.2. Müştəri tərəfindən Sifarişi icra etmək üçün tələb olunan vəsait aidiyyəti üzrə təqdim edilmədikdə sifarişi icra etməmək;
4.1.3. Əqdin bağlanması üçün Müştərinin vəsaiti çatmadıqda, çatışmayan vəsaitin Şirkətin hesabına daxil olması anına qədər Müştərinin Sifarişini icra etməmək;
4.1.4. Müştərinin sifarişi qanunvericiliyə uyğun qaydada tərtib edilmədikdə və sifarişi təmin etmək üçün lazimi vəsait və ya qiymətli kağızlar olmadıqda sifarişi icra etməmək;
4.1.5. Bu Müqavilənin icrası zamanı çəkilmiş xərclərin əvəzinin ödənilməsini tələb etmək;
4.1.6. Müştərini eyniləşdirməyə imkan verən sənədləri tələb etmək;
4.1.7. Üçüncü şəxslər, hesablaşma agentləri, depozitarilər, ticarət təşkilatçıları və reyestrsaxlayıcılar qarşısında Müştərinin vəkil edilmiş şəxsi kimi çıxış etmək;
4.1.8. Müştəri tərəfindən təqdim olunmuş sənədlərdə əqdlərin mənbəyinin qeyri-qanuni xarakter daşıdığına dəlalət edən faktlar aşkar edildikdə, əqdin qanuni olmasını təsdiq edənə qədər, Müştərinin Sifarişinin icrasını dayandırmaq və Şirkət Xidmətlərinin göstərilməsindən imtina etmək;
4.1.9. Müştərinin qiymətli kağızlarının və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatlarını həyata keçirmək;
4.1.10. Müştəri öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədikdə, müştərini 10 (on) iş günü ərzində öncədən yazılı surətdə məlumatlandıraraq bu Müqaviləyə birtərəfli qaydada xitam vermək;
4.1.11. Qanunvericilik və Şirkətin daxili qaydaları ilə müəyyən olunmuş digər hüquqlara malik olmaq.
4.2. Şirkətin vəzifələri:
4.2.1. Müştəriyə Şirkətin daxili uçot sistemində hesab açılır və ən geci 5 (beş ) iş günü ərzində bu hesabla bağlı Eyniləşdirmə Nömrəsi Müştəriyə təqdim etmək;
4.2.2. Müştərinin göstərişinə əsasən MDM-də depo hesabı açmaq;
4.2.3. Tələb olunan qaydada təqdim edilmiş Sifarişləri və/və ya Müraciətləri icra etmək;
4.2.4. Sifarişin və/və ya Müraciətin icra edilməsi mümkün olmadıqda icranı mümkünsüz edən səbəblər barədə Müştərini məlumatlandırmaq;
4.2.5. Xidmətlərin vicdanla və keyfiyyətli icrasını təmin etmək. Keyfiyyətli icra dedikdə Şirkətin, müvafiq növdə və həcmdə olan əqd üçün bazarda olan ən yaxşı qiymətin müəyyən edilməsi üçün bütün ağlabatan tədbirləri görməsi və belə hal olduğu təqdirdə Müştəriyə daha az əlverişli qiymətdən aşağı qiymətə olmayan əqdə daxil olmaması nəzərdə tutulur. Xidmətlərin icrası zamanı müstəsna olaraq Müştərinin maraqlarına xidmət etmək və özünün mülahizəsinə əsasən Müştərinin maraqlarına mənfi təsir göstərə biləcək hallar haqqında Müştərini məlumatlandırmaq;
4.2.6. Sifarişin və/və ya Müraciətin yerinə yetirilməsi barədə Müştəriyə razılaşdırılmış qaydada və Şirkət tərəfindən imzalanmış və möhür ilə təsdiq edilmiş hesabat təqdim etmək;
4.2.7. Müştəri tərəfindən onun Sifarişlərinin icra edilməsi məqsədi ilə köçürülmüş Aktivlərin dəyəri həddində Müştərinin Sifarişlərini yerinə yetirmək;
4.2.8. Qanunvericilik və Şirkətin daxili qaydaları ilə müəyyən olunmuş digər vəzifələri daşımaq.
4.3. Müştərinin hüquqları:
4.3.1. Şirkətə Qanunvericilikdə nəzərdə tutulan formada (elektron, telefon vasitəsi ilə və ya yazılı) bildiriş təqdim edərək hər hansı icra edilməmiş Sifarişi tam və ya qismən ləğv etmək;
4.3.2. Şirkətdən Müştəriyə aid olan Xidmətlər və Əqdlər barədə elektron və digər yazılı formalarda hesabat almaq;

4.3.3. Şirkət öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədikdə, onu 10 (on) iş günü öncədən yazılı surətdə məlumatlandıraraq bu Müqaviləyə birtərəfli qaydada xitam vermək.

4.4. Müştərinin öhdəlikləri:

4.4.1. Şirkət ilə müqavilə bağlamaq və Sifarişi yerinə yetirmək üçün tələb olunan sənədləri və məlumatları təqdim etmək;

4.4.2. Bu müqavilə ilə əlaqədar şirkətə təqdim olunan sənədlərdə hər hansı bir dəyişiklik olduqda Şirkətə bu barədə 5 (beş) iş günü ərzində yazılı surətdə məlumat vermək;

4.4.3. Sifarişin icrası məqsədi ilə Şirkəti Əqdin həcmində vəsaitlə təmin etmək;

4.4.4. Sifariş və Müraciətlər yerinə yetirildikdə Şirkətə bu Müqaviləyə Əlavə ilə razılaşdırılmış komisyon haqqı Əlavə ilə müəyyən edilmiş vaxtda ödəmək;

4.4.5. Sifarişlərin icra edilməsi məqsədi ilə Şirkəti vəsait ilə vaxtında təmin etmək;

4.4.6. Şirkətə Müştəri tərəfindən əvvəlki Sifarişlərlə bağlı öhdəliklərinin tam icra olunmasına qədər sifarişlər verməmək;

4.4.7. Şirkəti Müştəriyə məxsus olan və Sifarişin mahiyyəti ilə bağlı olan Müştərinin bildiyi və ya bilməli olduğu Qiymətli Kağızlara münasibətdə mövcud olan hər hansı girov və ya digər təminatın olması barədə məlumatlandırmaq;

4.4.8. Müştərinin öhdəliklərini yerinə yetirməməsi səbəbindən Şirkətə dəymiş bütün zərəri ödəmək;

4.4.9. Bu Müqavilədə nəzərdə tutulmuş şərtləri qəbul etmək və hər hansı qeyri-qanuni məqsəd, o cümlədən çirkli pulların yuyulması, yəni cinayət yolu əldə edilmiş pul vəsaitlərinin və/və ya digər əmlak və gəlirin leqallaşdırılması və qiymətli kağızlardan istifadə yolu ilə terrorizmin maliyyələşdirilməsi üçün istifadə etməyəcəyinə təminat vermək və buna görə məsuliyyət daşımaq;

4.5. Şirkət Müştəri ilə danışıqlarını qeydə ala bilər və Müştəri Şirkətə telefon və ya digər elektron daşıyıcı formalarda verdiyi sifarişləri Şirkətin tələbinə uyğun olaraq yazılı və imzalanmış şəkildə təqdim etməlidir.

## 5. MÜQAVİLƏ ÜZRƏ HESABLAŞMA QAYDASI

5.1. Bu Müqavilə üzrə hesablaşma birja əqdlərinə münasibətdə klirinq təşkilatının və hesablaşma agentinin qaydalarına əsasən köçürmə yolu ilə, birjadankənar əqdlər üzrə nağd (yalnız fiziki şəxslər üçün) və ya köçürmə yolu ilə həyata keçirilir. Əlavə Hesablaşma qaydası bu müqaviləyə Əlavə razılaşma şəklində tərəflərin razılığı ilə müəyyən edilə bilər.

## 6. MÜŞTƏRİNİN AKTİVLƏRİNİN QAYTARILMASI QAYDASI, O CÜMLƏDƏN MÜŞTƏRİNİN VƏ YA İNVESTİSİYA ŞİRKƏTİNİN TƏŞƏBBÜSÜ İLƏ ƏQDİN BAĞLANMASINDAN İMTİNA HALINDA QARŞILIQLI HESABLAŞMALARIN APARILMASI ŞƏRTLƏRİ

6.1 Müştəri şirkətdə olan pul vəsaitinin geri qaytarmaq üçün Şirkətə müraciət edə bilər;

6.2 Şirkət bu müqavilənin 6.1-ci bəndində qeyd edilən müraciəti aldıqdan həmin pul vəsaitinin müştəriyə məxsus olub-olmamasını yoxlayır və 3 (üç) İş Günü ərzində müraciətdə qeyd olunan pul vəsaitini geri qaytarmalıdır;

6.3 Bu Müqaviləyə və ya sifarişə xitam verildikdə Müştərinin Şirkətin hesabında qalmış pul vəsaiti bu Müqavilə üzrə Şirkətin və üçüncü şəxslərin xidmət haqqı və əsaslandırılmış xərclər çıxdıqdan sonra Şirkət tərəfindən Müştəriyə qaytarılmalıdır;

6.4 Müştərinin Şirkətdə qalığı olmadığı təqdirdə icra olunmuş sifarişlər üzrə aktivlərin geri qaytarılması tələbi nəzərə alınmır.

## 7. SİFARİŞİN LƏĞV EDİLMƏSİ VƏ YA İCRA EDİLMƏMİŞ HİSSƏSİNİN TAM VƏ YA QİSMƏN LƏĞV EDİLMƏSİ VƏ BU BARƏDƏ MÜŞTƏRİYƏ MƏLUMATLARIN VERİLMƏSİ QAYDASI

7.1. Şirkət müştərilərin sifarişlərini icra edərkən hər hansı bir çətinliklə üzləşdikdə bu barədə müştəriyə dərhal məlumat verir.
7.2. Sifarişdə göstərilmiş icra müddəti (qüvvədə olma müddəti) başa çatdıqda sifariş qüvvədən düşmüş hesab edilir.
7.3. Şirkət Sifarişi icra edə bilmədikdə, Müştəriyə 3 (üç) İş Günü ərzində Müştərinin Sifarişinin icra edilməməsinin səbəblərini göstərməklə bildiriş təqdim edir.
7.4. Tərəflər razılığa gəlirlər ki, məlumatlandırma bu Müqavilədə və ona əlavə edilən razılaşmada əks olunan telefon, elektron poçt, sms və rəsmi məktub (poçt) vasitəsi ilə həyata keçirilə bilər.

## 8. RİSK FAKTORLARI

8.1. Risklər müxtəlif üsullarla, xüsusən aşağıda verilmiş yollarla təsnif edilə bilər:
8.1.1. Baş vermə mənbələrinə görə:
8.1.1.1. sistem riski - ümumiyyətlə sistemin, yəni istər bank sisteminin, depozitar sistemin, ticarət sisteminin, klirinq sisteminin, istərsə də qiymətli kağızlar bazarını təşkil edən digər strukturların fəaliyyəti ilə bağlı risk;
8.1.1.2. qeyri-sistem (fərdi) risk - qiymətli kağızlar bazarının konkret iştirakçısının: investorun, Şirkətin, səlahiyyətli idarəçinin, ticarət meydançasının, depozitarinin, bankın, emitentin, qiymətli kağızlar bazarını tənzimləyicilərin və s. risklər.
8.1.2. Risk faktorlarına görə:
8.1.2.1. iqtisadi risk - iqtisadi xarakterli əlverişsiz şəraitlərin yaranması riski. Belə risklər arasında aşağıdakıları xüsusi olaraq göstərmək lazımdır:
8.1.2.2. qiymət riski - qiymətlərin əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
8.1.2.3. bazar riski - bazar qiymətlərində olan dəyişikliklərdən yaranan balans və balansdan kənar mövqelər üzrə itki riskləri;
8.1.2.4. valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
8.1.2.5. faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
8.1.2.6. inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
8.1.2.7. likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
8.1.2.8. əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
8.1.2.9. əmtəə qiymət riski - əmtəə qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri;
8.1.2.10. hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
8.1.2.11. konsentrasiya riski - Şirkətin fərdi müştəri və ya müştəri qrupuna qarşı məcmu kapitalının 25%-ni keçən riskləri;
8.1.2.12. kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
8.1.2.13. səhm qiymət riski - səhm qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri;
8.1.2.14. spesifik borc aləti qiymət riski - borc alətləri üzrə emitentlə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;

8.1.2.15. spesifik mövqe riski - maliyyə alətinin emitenti ilə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;

8.1.2.16. hüquqi risk - qanunvericilikdə dəyişikliklər ilə bağlı risk (qanunvericilik riski) - yeni qanunvericilik aktlarının, o cümlədən vergi aktlarının yaranması və ya mövcud aktların dəyişməsi (ləğv edilməsi) ilə bağlı itkilərin baş verməsi mümkünlüyü. Qanunvericilik riskinə həmçinin qiymətli kağızlar bazarının hər hansı sektorunda fəaliyyəti tənzimləyən normativ-hüquqi aktların olmamasından baş vermiş itkilər də daxildir;

8.1.2.17. sosial-siyasi – siyasi və iqtisadi şəraitdə əsaslı dəyişikliklərin baş verməsi riski, sosial qeyri-stabillik riski, o cümlədən tətil riskləri, hərbi əməliyyatların başlanması riski;

8.1.2.18. cinayət - üçüncü şəxslərin və/yaxud Şirkətin əməkdaşlarının qanunsuz əməlləri, məsələn, sənədli formada buraxılmış qiymətli kağızların saxtalaşdırılması, dələduzluq, kompüter sistemlərindən və məxfi məlumatlardan icazəsiz istifadə ilə bağlı risk;

8.1.2.19. əməliyyat (texniki, texnoloji, kadr) - informasiya, elektrik və digər sistemlərin nasazlığı, yaxud bazar infrastrukturunun, o cümlədən əməliyyatların aparılması texnologiyasının, idarəetmə, uçot və nəzarət prosedurlarının qeyri-mükəmməliyi, yaxud personalın hərəkəti (hərəkətsizliyi) nəticəsində baş vermiş birbaşa və ya dolayı itkilər riski;

8.1.2.20. təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər);

8.1.2.21. texnogen - insanın təsərrüfat fəaliyyətindən yaranan risk: qəza şəraitləri, yanğınlar və s.

8.1.3. Müştəri üçün iqtisadi nəticələrə görə:

8.1.3.1. gəliri itirmə riski - investisiyalardan gözlənilən gəlirin tam və ya qismən itirilməsinə səbəb olan hadisənin baş verməsi mümkünlüyü;

8.1.3.2. investisiya qoyulan vəsaitlərin itirilməsi riski - investisiya qoyulmuş vəsaitlərin tam və ya qismən itirilməsinə səbəb olan hadisənin baş verməsi mümkünlüyü;

8.1.3.3. investisiya qoyulan məbləğdən artıq olan itki riski - tək gözlənilən gəlirin və investisiya qoyulan vəsaitlərin itirilməsinə deyil, həmçinin itkinin investisiya qoyulmuş məbləğdən artıq olmasına səbəb olan hadisənin baş verməsi mümkünlüyü.

8.1.4. Müştərinin risk mənbəyi ilə əlaqəsi ilə bağlı:

8.1.4.1. birbaşa risk - riskin mənbəyi birbaşa olaraq Müştəri ilə hər hansı münasibətlərdən asılıdır;

8.1.4.2. vasitəli risk - Müştəri üçün əlverişsiz olan hadisənin Müştəri ilə birbaşa bağlı olmayan, lakin son nəticədə Müştərinin itki ilə üzləşməsinə gətirib çıxaracaq hadisələr silsiləsini doğuran mənbədə baş verməsi mümkünlüyü.

## 9. ETİK DAVRANIŞ QAYDALARI

9.1. Şirkət özünü və Müştərisini ən yüksək etik davranış standartlarına, o cümlədən əsas insan hüquqlarına, hamı üçün ədalətli və bərabər rəftarın təşviqinə, təhlükəsiz və sağlam iş şəraitinin təmin edilməsinə, ətraf mühitə hörmətə, bunun üçün müvafiq idarəetmə və biznesin etik davranış qaydalarına uyğun olmağa çalışır.

9.2. Müştəri Azərbaycan Respublikasının Cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılması və terroçuluğun maliyyələşdirilməsi və anti-korrupsiya ilə bağlı qanunvericiliyin tələblərinə əməl etməsini öz öhdəsinə götürür.

## 10. MƏXFİLİK

10.1. Şirkət və Müştəri bu Müqavilənin qüvvədə olduğu müddət ərzində və onun müddəti bitdikdən və ya ona hər hansı səbəbdən xitam verildikdən sonra bu Müqaviləyə dair digər Tərəfdən və onunla əlaqəli şirkətdə

10.2. n əldə olunan bütün məxfi məlumatları gizli və konfidensiallıq şərtlərinə uyğun saxlamağa və bütün məxfi məlumatı yalnız bu Müqavilənin məqsədləri üçün istifadə etməyə razılıq verir.

10.3. Müştəri məlumatları Şirkət tərəfindən gizli məlumat hesab edilir. Həmin məlumatlar Mərkəzi Bankın və ya məhkəmənin sorğusu əsasında onlara təqdim edilir.

## 11. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ XİTAM VERİLMƏSİ QAYDASI

11.1. Bu müqavilə hər iki Tərəfin onu imzalaması ilə qüvvəyə minir və 1 (bir) il müddətində qüvvədə qalır.

11.2. Müqavilənin müddətinin bitməsinə 30 (otuz) təqvim günü qalmış Tərəflərdən biri digərinə Müqaviləyə xitam verilməsi barədə bildiriş göndərməzsə, o zaman mövcud Müqavilə eyni şərtlərlə hər növbəti 1 (bir) il müddətinə uzadılmış sayılır.

11.3. Müqaviləyə aşağıdakı hallarda xitam verilə bilər:

11.3.1. Tərəflərdən birinin digərinə 30 (otuz) İş Günündən gec olmamaq şərtilə əvvəlcədən yazılı bildiriş təqdim etməklə;

11.3.2. Bu Müqaviləyə xitam verilməsi ilə bağlı Tərəflər arasında lazımi qaydada tərtib edilmiş qarşılıqlı razılıq ilə;

11.3.3. Şirkətin Şirkət fəaliyyəti ilə məşğul olmaq lisenziyası geri çağırıldıqda;

11.3.4. Bu müqavilədə nəzərdə tutulan digər hallarda.

11.4. Tərəflərin bu Müqavilə ilə nəzərdə tutulmuş hər hansı icra edilməmiş öhdəlikləri bu Müqaviləyə xitam verildikdən sonra da öhdəliklər tam icra edilənədək qüvvədə olacaq.

## 12. ƏLAVƏ MÜDDƏALAR

12.1. Şirkət əqdin yarımçıq və ya tamamilə icra edilməməsinə aşağıdakı hallarda cavabdehlik daşımır:

12.1.1. Fors-major- elektrik kəsintisi, telefon, faks və ya internet kabelində yaranan problem, Elektron Ticarət Sistemlərində nasazlıq, zəlzələ, daşqın, yanğın, təbii fəlakət, vətəndaş müharibəsi, terror aktı, işçi tətili və bu kimi digər hallar. Tərəf fors major halı yarandıqdan sonra praktiki cəhətdən mümkün qədər tez qarşı Tərəfə fors major halının xarakteri və miqyası barədə yazılı bildiriş verir və istənilən belə səbəbləri aradan qaldırmaq və mümkün qədər tez Müqavilə üzrə öhdəliklərinin icrasını bərpa etmək üçün kommersiya baxımından ağlabatan səylər göstərir.

12.1.2. Qanunvericiliyə əsasən qiymətli kağızlar bazarına nəzarət edən dövlət qurumu və ya mərkəzi depozitar əqdin bağlanmasına istənilən səbəbdən, o cümlədən bəzi ölkələrin vətəndaşlarına qoyulan qadağa üzündən icazə verməzsə;

12.1.3. Müştərinin hesabında lazımı qədər vəsait olmadıqda;

12.1.4. Şirkət 3-cü şəxslərin və nəzarət orqanının hərəkətlərinə görə.

12.2. Fors-major halı 30 (otuz) gündən artıq davam etdikdə Tərəflərdən hər hansı biri digər Tərəfə yazılı bildiriş təqdim etməklə bu müqaviləyə xitam verə bilər .

12.3. Fors-major hallarının təsiri altına düşən Tərəf bu barədə digər Tərəfi belə halların başlandığı andan 10 (on) təqvim günü müddətindən gec olmayaraq xəbərdar etməlidir. Digər tərəfi vaxtında xəbərdar etməmə halı fors-major halına əsaslanma hüququ vermir.

12.4. Bu Müqavilə əsasında Müştəri, Xidmətlərin göstərilməsi zamanı üçüncü şəxslər və digər əlaqəli şəxslərdən bu icra üçün zəruri olan bütün məlumatların alınmasını Şirkətə həvalə edir.

12.5. Müştərinin yazılı razılığı ilə onun Sifarişinin və /və ya Müraciətinin icra edilməsi Şirkət tərəfindən üçüncü şəxsə həvalə edilə bilər.

12.6. Bu Müqavilə ilə Müştəri Şirkətə MDM-də, “Bakı Fond Birjası” QSC-də və Mərkəzi Bankda özünün vəkil edilmiş nümayəndəsi kimi cıxış etmək və müştərinin Şirkət ilə portfelin idarəedilməsi müqaviləsi olduğu halda müvafiq hesabları açmaq və bağlamaq,

onun Depo Hesabında mövcud olan bütün Qiymətli Kağızlar və keçirilən əməliyyatlar üzrə məlumatların alınmasını, hesablardan çıxarış və sertifikatları almaq, onları identifikasiya edən məlumatları və rekvizitləri dəyişdirmək, Qiymətli Kağızların ötürülməsini təmin etmək məqsədi ilə müvafiq sərəncamları imzalamaq səlahiyyətlərini verir.
12.7.Müştəri MDM-də deponentləşdirilmiş Qiymətli Kağızlarla əməliyyatlar etmək üçün Şirkətə müvafiq olaraq hesab üzrə sərəncam və subhesab üzrə sərəncam təqdim etməlidir. Təqdim edilmiş sərəncamlarda müvafiq Qiymətli Kağızlarla əməliyyatların aparılması nəzərdə tutulmadıqda və ya belə sərəncamların müddətinin bitməsi ilə əlaqədar Sifarişin yerinə yetirilməsi mümkün olmadıqda məsuliyyəti Müştəri daşıyır.
12.8. Müştəri ünvanlı əqd bağlamaq istədiyi zaman təqdim etdiyi Sifarişdə bunu əks etdirməlidir. Sifarişin Fond Birjasında icrası zamanı əqdin kontragenti qismində istənilən şirkət və ya onun müştərisi ola bilər. Şirkət müəyyən kontragentin seçilməsinə cavabdehlik daşımır. Şirkət Müştərinin Sifarişinin icrası üçün Sifarişi elektron formada Fond Birjasının sisteminə yerləşdirməlidir (Fond Birjasından kənar əməliyyatlar istisna olmaqla).
12.9.Müştəri bəyan edir ki, əldə etdiyi vəsaitlər çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi yolu ilə maliyyələşən mənbələrdən əldə edilməyib.
12.10. Tərəflər bu müqavilədən irəli gələn öhdəliklərin icra edilməsi ilə əlaqədar qarşılıqlı məsuliyyət daşıyırlar.
12.11. Tərəflər bu Müqavilə ilə bağlı və ya onunla əlaqədar olaraq yaranan bütün mübahisələri danışıqlar yolu ilə həll etməyə çalışırlar. Tərəflər yaranmış mübahisələri danışıq yolu ilə həll edə bilmədikdə bu mübahisə aidiyyəti üzrə Azərbaycan Respublikasının müvafiq məhkəməsində həll olunur.
12.12. Bu Müqavilənin bağlanması zamanı imzanın faksimilesindən, asan və ya elektron imzadan istifadə oluna bilər. Tərəflər razılaşır ki, bu Müqavilə fiziki şəkildə imzalanıb və tərəflərin bir birlərinə scan edilmiş nüsxələrinin elektron poçt vasitəsilə mübadiləsi müqavilənin fiziki qaydada imzalanması hesab olunur.

## 13. YEKUN MÜDDƏALAR

13.1.Bu Müqaviləyə edilən bütün əlavə və dəyişikliklər onun ayrılmaz hissəsini təşkil edir.
13.2.Bu Müqavilənin hər hansı bəndinin etibarsız və ya icra olunmayan hesab olunması onun bütünlüklə etibarsız və ya icra olunmayan hesab olunmasına səbəb olmur;
13.3.Maliyyə bazarlarına nəzarət edən orqan- Azərbaycan Respublikasının Mərkəzi Bankı (Ünvan: Bakı ş., Rəşid Behbudov küçəsi, 90).
13.4.Ərizə və şikayətlər ilə bağlı info@afi.az elektron ünvanına müraciət edə bilərsiniz.
13.5.Hər hansı şikayətiniz olduğu halda AR Mərkəzi Bankın 966 qaynar xətti ilə əlaqə saxlaya bilərsiniz. Mübahisələrin məhkəmədən kənar həli üçün 13 saylı Mediasiya Təşkilatına müraciət edə bilərsiniz (ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 237a, tel: +994(51) 777 9626 )